AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# Kənd Təsərrüfatı və Ərzaq Məhsulları üzrə Dünya Bazarı Konyukturasına dair Qısa İcmal

Oktyabr 2023

# M ü n d ə r i c a t


FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı ........ 2
Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal ........ 3
Rusiya buğdasının ixrac qiyməti ........ 6
Arpanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 7
Düyünün dünya bazarı qiymətinə dair qısa icmal ........ 8
Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal ........ 9
Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal ........ 10
Pambığın dünya bazarı qiymətinə dair qısa icmal ........ 11
Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal ........ 12
Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 13
Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal ........ 14
Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal ........ 15
Çayın dünya bazarı qiymətinə dair qısa icmal ........ 16
Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal ........ 17
Soyanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 18
Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal ........ 19
Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal ........ 20
Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal ........ 21
Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal ........ 22
Südün dünya bazarı qiymətinə dair qısa icmal ........ 23
Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal ........ 25

# FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı

**(FAO-nun 3 noyabr 2023-cü il tarixli açıqlaması)**

***FAO-nun Ərzaq Qiymətləri İndeksi 2023-cü ilin oktyabr ayında əvvəlki ay ilə müqayisədə azalmışdır.***

- **Qlobal Ərzaq Qiyməti İndeksi** 2023-cü ilin oktyabr ayında orta hesabla 120.6 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 0.6% (0.7 bənd), ötən ilin oktyabr ayı ilə müqayisədə isə 10.9% (14.8 bənd) **azdır**.
- **Ət Məhsullarının Qiymət İndeksi** oktyabr ayında orta hesabla 112.9 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 0.6% (0.7 bənd), ötən ilin oktyabr ayı ilə müqayisədə isə 3.4% (3.9 bənd) **azdır.**
- **Süd Məhsullarının Qiymət İndeksi** oktyabr ayında orta hesabla 111.3 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 2.2% (2.4 bənd) çox, ötən ilin oktyabr ayı ilə müqayisədə isə 20.1% (28.0 bənd) **azdır**.
- **Taxıl Qiyməti İndeksi** oktyabr ayında orta hesabla 125.0 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.0% (1.3 bənd), ötən ilin oktyabr ayı ilə müqayisədə isə 17.9% (27.3 bənd) **azdır**.
- **Bitki Yağlarının Qiymət İndeksi** oktyabr ayında orta hesabla 120.0 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 0.7% (0.9 bənd), ötən ilin oktyabr ayı ilə müqayisədə isə 20.7% (31.3 bənd) **azdır**.
- **Şəkər Məhsullarının Qiymət İndeksi** oktyabr ayında orta hesabla 159.2 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 2.2% (3.5 bənd) az, ötən ilin oktyabr ayı ilə müqayisədə isə 46.6% (50.6 bənd) **çoxdur.**

**FAO-nun ərzaq qiymətləri indeksi, məhsullar üzrə, aylıq (2014-2016-cı illər 100 götürülüb)**




**FAO-nun ərzaq qiymətləri indeksi, illik (2014-2016-cı illər 100 götürülüb)**




**Mənbə:** http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/

# Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal

***(ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin 9 noyabr 2023-cü il tarixli hesabatı əsasında hazırlanıb)***

- 2023/2024-cü məhsul ili üzrə qlobal buğda istehsalının 2022/2023-cü ilə nəzərən 7 milyon ton azalaraq 782 milyon ton olacağı proqnozlaşdırılır.

**Dünya üzrə buğda bazarının tələb-təklif balansı, milyon ton**

| | | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|
| **TƏKLİF** | İlin əvvəlinə qalıq | 284 | 272 | 270 |
| | İstehsal | 781 | 789 | 782 |
| | **Cəmi təklif** | 1065 | 1062 | 1052 |
| **TİCARƏT** | İdxal / İxrac | 203 | 220 | 205 |
| **TƏLƏB** | Ərzaq və toxum | 631 | 637 | 635 |
| | Yem | 161 | 155 | 158 |
| | Cəmi istifadə | 793 | 792 | 793 |
| **İLİN SONUNA QALIQ** | | 272 | 270 | 259 |
| ***DÜNYA ÜZRƏ EHTİYATLARIN İSTEHLAKA NİSBƏTİ*** | | **34%** | **34%** | **33%** |

**Mənbə:** https://www.uswheat.org/market-information/supply-and-demand/

- Məcmu təklifin həcm göstəricisinin 2022/2023-cü məhsul ili ilə müqayisədə 10 milyon ton azalaraq 1052 milyon ton olacağı proqnozlaşdırılır.
- Qlobal buğda ehtiyatları həcminin 2022/2023-cü məhsul ili ilə də müqayisədə 2023/2024-cü məhsul ilində 4.1% azalacağı və 259 milyon tona enəcəyi gözlənilir. Nəticədə dünya üzrə ehtiyatların istehlaka nisbəti göstəricisi 33% səviyyəsində olacaq.
- Ötən mövsümə nəzərən cari mövsümdə əsas buğda ixracatçısı olan ölkələrdə ilin əvvəlinə olan qalıq həcminin 3 milyon ton artaraq 63 milyon ton, istehsal həcminin isə 2022/2023-cü məhsul ili ilə müqayisədə 17 milyon ton az (379 milyon ton) olacağı gözlənilir. Bununla da əsas ixracatçı ölkələr üzrə ümumi təklif səviyyəsi 14 milyon ton az (442 milyon ton) olacaq.

- Dünya buğda ticarətinin 2023/2024-cü məhsul ilində əvvəlki məhsul ili ilə müqayisədə 15 milyon ton azalaraq 205 milyon ton olacağı proqnozlaşdırılır.
- Çində ilin əvvəlinə olan qalıq həcminin 2022/2023-cü məhsul ili ilə müqayisədə 2 milyon ton artaraq 139 milyon ton olacağı gözlənilir.
- Qara dəniz regionu ölkələri qrupu üzrə əvvəlki məhsul ilinə nəzərən 2023/2024-cü məhsul ilində istehsal həcminin 3.9% azalaraq 138.4 milyon ton, ixracın isə 4.0% azalaraq 74.0 milyon ton olacağı proqnozlaşdırılır.

**Qara dəniz ölkələri qrupu üzrə icmal**




**Qara dəniz ölkələri qrupu üzrə ixrac**




**Mənbə:** www.uswheat.org

**Bu qrupda əsas istehsalçılar Rusiya, Ukrayna və Qazaxıstandır.**

➢ **2023-cü ilin oktyabr ayında buğdanın qiyməti əvvəlki aya nisbətən 2.7% artaraq 237 ABŞ dolları/ton səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international

# Rusiya buğdasının ixrac qiyməti

➢ **Rusiya buğdasının ixrac qiymətində qeyri-müəyyənlik müşahidə olunur. Oktyabr ayında buğdanın qiyməti əvvəlki aya nisbətən 4.4% azalaraq 232 ABŞ dolları/ton təşkil etmişdir.**







**Mənbə:** https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international

# Arpanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin oktyabr ayında Avropa İttifaqı arpasının qiyməti əvvəlki ayla müqayisədə 2.4% azalaraq 230 ABŞ dolları, Qara dəniz arpasının qiyməti isə 8.4% azalaraq 172 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/home*

# Düyünün dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin oktyabr ayında düyünün qiyməti əvvəlki aya nisbətən 5.8% azalaraq 575 ABŞ dolları/ton səviyyəsinə enmişdir.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Qarğıdalının dünya bazarı qiymətində qeyri-sabitlik müşahidə olunur. Oktyabr ayında qiymət əvvəlki aya nisbətən 3.1% artaraq 231 ABŞ dolları səviyyəsinə yüksəlmişdir.**







**Mənbə:** [https://www.worldbank.org/en/research/commodity-markets#1](https://www.worldbank.org/en/research/commodity-markets#1)

# Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal

➢ **Dünya üzrə pambıq balansına əsasən, 2023/24-cü məhsul ilində pambıq istehsalının 2022/23-cü məhsul ili ilə müqayisədə 2.8% azalaraq 24.7 milyon ton olacağı proqnozlaşdırılır.**

**Cədvəl 1. Dünya üzrə pambıq balansı (*Çin də daxil olmaqla*), milyon ton**

| | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 Oktyabr | 2023/24 Noyabr |
|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 16.2 | 19.1 | 16.9 | 16.6 | 18.0 | 18.1 |
| **İstehsal** | 25.9 | 24.8 | 24.9 | 25.4 | 24.5 | 24.7 |
| **Təklif** | 42.1 | 44.0 | 41.8 | 42.0 | 42.6 | 42.8 |
| **Fabrik istehlakı** | 22.8 | 27.0 | 25.2 | 24.2 | 25.2 | 25.1 |
| ***İlin sonuna qalıq*** | 19.1 | 16.9 | 16.6 | 18.1 | 17.4 | 17.7 |
| ***Qalıq/İstehlak nisbəti*** | *83.8%* | *62.6%* | *65.9%* | *74.9%* | *69.0%* | *70.7%* |

**Cədvəl 2. Çinin pambıq balansı, milyon ton**

| | 2021/22 | 2022/23 | 2023/24 Oktyabr | 2023/24 Noyabr |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 8.1 | 8.3 | 8.1 | 8.1 |
| **İstehsal** | 5.8 | 6.7 | 5.9 | 5.9 |
| **İdxal** | 1.7 | 1.4 | 2.2 | 2.3 |
| **Təklif** | 15.7 | 16.3 | 16.2 | 16.3 |
| **Fabrik istehlakı** | 7.3 | 8.2 | 8.2 | 8.2 |
| ***İlin sonuna qalıq*** | 8.3 | 8.1 | 8.0 | 8.1 |
| ***İstehlak*** | 7.4 | 8.2 | 8.2 | 8.2 |
| ***Qalıq/İstehlak nisbəti*** | *112.4%* | *99.5%* | *97.9%* | *99.2%* |

**Cədvəl 3. Çin istisna olmaqla dünya pambıq balansı, milyon ton**

| | 2021/22 | 2022/23 | 2023/24 Oktyabr | 2023/24 Noyabr |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 8.8 | 8.3 | 9.9 | 9.9 |
| **İstehsal** | 19.1 | 18.7 | 18.6 | 18.8 |
| **Təklif** | 27.9 | 27.1 | 28.6 | 28.8 |
| **Fabrik istehlakı** | 17.9 | 16.0 | 17.0 | 16.9 |
| **Çinə ixrac** | 1.7 | 1.4 | 2.2 | 2.3 |
| ***İstehlak*** | 19.6 | 17.3 | 19.2 | 19.2 |
| ***İlin sonuna qalıq*** | 8.3 | 9.9 | 9.4 | 9.6 |
| ***Qalıq/İstehlak nisbəti*** | *42.6%* | *57.3%* | *48.8%* | *50.1%* |

**Mənbə**: *https://www.cottoninc.com/market-data/monthly-economic-newsletter/*

# Pambığın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Pambığın dünya bazar qiymətində son bir il ərzində qeyri-müəyyənlik müşahidə edilir. 2023-cü oktyabr ayında pambığın 1 kiloqramının qiyməti ("A Index") əvvəlki aya nisbətən 2.3% azalaraq 2.11 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin oktyabr ayında dünya bazarında xam ipəyin qiyməti əvvəlki aya nisbətən 1.2% artaraq 68.4 min ABŞ dolları/ton səviyyəsinə qalxmışdır.**







**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-month--.html

# Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin oktyabr ayında dünya bazarında quru baramanın qiyməti əvvəlki aya nisbətən 1.9% artaraq tona 22.4 min ABŞ dolları səviyyəsinə yüksəlmişdir.**







**Mənbə:** [http://www.sunsirs.com/uk/sdetail-month--.html](http://www.sunsirs.com/uk/sdetail-month--.html)

## Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal

➢ Günəbaxan yağının qiymətində qeyri-sabitlik müşahidə olunur. 2023-cü ilin oktyabr ayında günəbaxan yağının 1 tonunun qiyməti əvvəlki aya nisbətən 1.7% artaraq 910 ABŞ dolları səviyyəsinə qalxmışdır.







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal

➢ 2023-cü ilin oktyabr ayında zeytun yağının 1 tonunun qiyməti əvvəlki aya nisbətən İtaliya bazarında 10.2% artaraq 9277, İspaniya bazarında 3.9%, Yunanıstan bazarında 2.7% azalaraq müvafiq olaraq 8601 və 8125 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.







**Mənbə:** *https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html*

## Çayın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Oktyabr ayında çayın 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ayla müqayisədə 3.2% azalaraq 2.76 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

# Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin oktyabr ayında şəkərin dünya bazarı qiyməti əvvəlki aya nisbətən 2.2% azalaraq 0.57 ABŞ dolları/kq səviyyəsinə enmişdir.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

## Soyanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Soya qiymətlərində qeyri-sabitlik müşahidə olunur. Oktyabr ayında soyanın 1 tonunun qiyməti əvvəlki aya nisbətən 14.5% azalaraq 530 ABŞ dolları səviyyəsinə enmişdir.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

## Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin may ayından mal ətinin dünya bazar qiymətində müşahidə olunan azalma sentyabr ayından artım ilə əvəz olunmuşdur. Oktyabr ayında 1 kiloqramının qiyməti əvvəlki aya nisbətən 0.3% artaraq 5.2 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **Avropa bazarında aprel ayında özünün ən yüksək həddinə çatan qoyun ətinin qiymətində azalma avqust ayına qədər davam etmişdir. Oktyabr ayında qoyun ətinin 1 kiloqramının orta qiyməti əvvəlki aya nisbətən 3.3% artaraq 7.9 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** [https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html](https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html)

## Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin oktyabr ayında donuz ətinin 1 kiloqramının Avropa bazarı qiyməti əvvəlki aya nisbətən 5.5% azalaraq 2.3 ABŞ dolları səviyyəsinə enmişdir.**







**Mənbə:** *https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html*

## Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Quş ətinin 1 kiloqramının dünya bazarı qiyməti oktyabr ayında əvvəlki ayla müqayisədə dəyişməz olaraq 2.89 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə**: https://www.worldbank.org/en/research/commodity-markets#1

# Südün dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin sentyabr ayında süd xammalının 1 tonunun fermadan satış qiyməti əvvəlki ayla müqayisədə ABŞ-da 6.7% artaraq 463, Yeni Zelandiyada 6.4% artaraq 327 ABŞ dolları olmuşdur. Avropa İttifaqında isə süd xammalının qiyməti oktyabr ayında əvvəlki ayla müqayisədə 1.1% azalaraq 459 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə**: https://www.clal.it/en/index.php

➢ Quru südün 1 tonunun qiyməti 2023-cü ilin oktyabr ayında əvvəlki ayla müqayisədə ABŞ-da 2.3% artaraq 4354, Avropa İttifaqında isə 3.6% artaraq 3711 ABŞ dolları olmuşdur.







Mənbə: https://www.clal.it/en/index.php

# Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Oktyabr ayında fosfor gübrəsinin qiyməti əvvəlki aya nisbətən 1.4%, azot gübrəsinin qiyməti 8.3% artaraq müvafiq 468, 411 ABŞ dolları, kalium gübrəsinin qiyməti isə 2.9% azalaraq 342 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets

Əlaqə:

(+994 12) 599-08-88
www.atm.gov.az
info@atm.gov.az
Süleyman Vəzirov küçəsi, 91
AZ 1025 Bakı, Azərbaycan

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ